# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# SƏRƏNCAMI

**Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsi haqqında**

Müsəlman dünyasında ilk Demokratik Respublikanın yaradılmasında və müasir dövrdə müstəqil Azərbaycan dövlətinin qurulması prosesində milli diplomatiyanın rolunu nəzərə alaraq və 1919-cu ilin iyul ayının 9-da Azərbaycan Cümhuriyyəti Xarici İşlər Nazirliyinin katibliyinə dair müvəqqəti təlimatın qəbul edildiyini əsas tutaraq **qərara alıram:**

1. Hər il 9 iyul Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd edilsin.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, "24" avqust 2007-ci il

№ 2356